

Günel MEHRİ

# QARABAĞ AZƏRBAYCANDIR!

İndi bildim ki, hər yer Qarabağdır!
Bombalanan Gəncə, Bərdə, Tərtər...
Hədəf seçilən Mingəçevir...
Mülki şəhid verən Naftalandır Qarabağ!
Hər səhərini Qarabağ adıyla qarşılayıb, gecələrini dirigözlü açan Bakıdır Qarabağ!
İndi bildim ki, hər kəs qarabağlıdır...
Yaralı əsgərini gülləbarandan çıxaranda şəhid olan Turqut həkimdir Qarabağ!
Bayraqlarımız sancıldıqca Azan verən Namiqdir Qarabağ!
Döyüş yoldaşlarını qorumaq üçün erməni zabitlərini əliyalın boğan Cəbrayıldır Qarabağ!
İndi bildim ki, şəhidlərlə tükənmir, bütövləşir bu millət!
Çün Qarabağ candır!
Hər qarışı uğrunda şəhid gedən igidlərin canı...
İndi bildim ki, tək ön cəbhə deyil, arxa cəbhədir Qarabağ!
Növbələrə düzülüb əsgərinə qan göndərən minlərdir Qarabağ!
Son qəpiyini əsgərinə pay yollayan Hikmət babadır Qarabağ!
Bayraq tikən Laçın nənədir Qarabağ!
Bombalanan evindən bayrağını çıxaran gəncəli Xəyyamdır Qarabağ!
Qarabağ – tək torpaq deyil, meşə deyil, dağ deyil!
Qarabağ – namusdur, qeyrətdir, üz ağıdır!
Qarabağ – narahat ruhların doğma məkanı,
Üzeyirdir, Natəvandır, Bülbüldür – Qarabağ!
Poladdır, Raqufdur, Mübarizdir – Qarabağ!
İndi üzümü Məğribə və Məşriqə tutub rahat ürəklə deyirəm:
– Ehey! Eşidirsən, dünya?
Qarabağ – Azərbaycandır!
Başını dik tut, Vətən, eşidirsən?
Qarabağ – Azərbaycandır!
Azərbaycandır – Qarabağ!